# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

"Heydər Əliyev məktəbi" layihəsinin açılış mərasimi keçirilib



5

№ 042 (7452)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

5 iyun 2026-cı il.
Qiyməti 1 manat

## Regionun aparıcı beynəlxalq enerji platforması




2

*Prezident İlham Əliyev: "Azərbaycan ilk ölkə idi ki, Xəzərin ehtiyatlarını beynəlxalq neft şirkətlərinə açıq etdi"*

# Ermənistanda rəqabət, ittiham və səs uğrunda savaş...



3

**DİQQƏT - bu şəxslər ölkədən çıxa bilməz!**



6

**Universitetə qəbul olmadı, bəs sonra?**



8

**İldə 100 minə yaxın körpəni qətlə yetirən cəmiyyət**



4

## Avropada islamofobiya hakimiyyətlərin göstərişləri ilə həyata keçirilir




7

## BMT: "Yaşıl enerjiyə keçiddə gizli bərabərsizlik var"



7

# Regionun aparıcı beynəlxalq enerji platforması

*Qlobal tədbirlərə yüksək səviyyədə ev sahibliyi edən paytaxt Bakı son dövrlərdə artıq beynəlxalq işgüzar tədbirlərin təşkil edildiyi mərkəz kimi tanınır. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin təşkilinin Azərbaycana həvalə edilməsi ölkənin dünyada beynəlxalq və geniş miqyaslı təbirlərin uğurlu təşkilatçısı statusunu bir daha sübut etmiş oldu.*

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarını birində bildirdiyi kimi, Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq: "Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı."

Bütün sahələrdə uğurların müəllifi olan Azərbaycan beynəlxalq tədbirlərə də ev sahibliyi etməklə liderlik bacarığını nümayiş etdirir. Artıq Azərbaycan beynəlxalq tədbirlərin mərkəzinə, qlobal layihələrin təşkilatçısına çevrilib. Ölkəmizdə dünyanı daim narahat edən problemlərlə əlaqədar beynəlxalq konfransların təşkil edilməsi, mədəniyyətlərarası siyasi dialoqları ehtiva edən, iqtisadi əməkdaşlığa əsaslanan forumların keçirilməsi Azərbaycanın xarici aləmdəki mövcud nüfuzunun, gücünün göstəricisidir. İyunun 1-də paytaxtımız "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"na ev sahibliyi etdi. Bakı Enerji Həftəsi dünya ölkələri ilə sıx əməkdaşlığı, dialoqu gücləndirir, eyni zamanda, daha dayanıqlı enerji gələcəyini təmin etməyə kömək edir. Enerji təhlükəsizliyinə nail olmaq hər bir ölkənin qarşısında duran böyük məqsəddir. Bunun üçün dayanıqlı regional əməkdaşlıq zəruridir.

### "XƏZƏR NEFT VƏ QAZ SƏRGİSİ MÜASİR AZƏRBAYCANIN ENERJİ İNKİŞAFININ BÜNÖVRƏSİNİ QOYDU"

Tədbirin Azərbaycanın enerji sektoru və bütövlükdə beynəlxalq ictimaiyyət üçün əhəmiyyəti var. 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan müasir tarixində yeni bir səhifə açdı. "Azərbaycanın enerji inkişafı 1994-cü ildə başladı. Yeri gəlmişkən, təşkilatçılara da öz dərin təşəkkürümüzü bildiririk. Əgər 1994-cü ilə nəzər salsaq, keçmişdə Azərbaycanın çox ağır vəziyyətdə olduğunu görə bilərik. Ölkə iqtisadi baxımdan tam qarışıq, siyasi baxımdan qeyri-sabit idi. Ərazinin təxminən 20 faizi Ermənistanın işğalı altında idi. Bir milyon qaçqın var idi və həmin vaxt, bu, ola bilsin, adambaşına düşən ən yüksək qaçqın sayı idi. Bizim heç bir vəsaitimiz yox idi. Elektrik enerjisini idxal edirdik. Biz hətta təbii qazı idxal edirdik. Yoxsulluq səviyyəsi 50 faizdən artıq idi. İşsizlik geniş yayılmışdı. Müstəqil ölkə kimi yaşamaq və irəliyə getməkdə bizim üçün yeganə yol sahib olduğumuz təbii sərvətlərdən istifadə idi. Azərbaycan ilk ölkə idi ki, Xəzərin ehtiyatlarını beynəlxalq neft şirkətlərinə açıq etdi. Həmin vaxtdan etibarən çox hadisələr oldu." Bu sözləri Prezident İlham Əliyev Bakı Enerji Həftəsinin rəsmi açılış mərasimində çıxışı zamanı deyib.

### "SAYI ARTAN ÖLKƏLƏRİN ENERJİ TƏHLÜKƏSİZLİYİNƏ TÖHFƏ VERƏN AZƏRBAYCANIN MÜASİR QAZ HASİLATINDA YENİ SƏHİFƏ AÇILDI"

"Xəzər Neft və Qaz Sərgisi müasir Azərbaycanın enerji inkişafının bünövrəsini qoydu. Vaxt ötdükcə o dəyişdi, daha böyük vüsət aldı və hazırda çoxsaylı tədbirlər və xeyli faydalı mərasimlərlə yadda qalan "Bakı Enerji Həftəsi" adlanır. Haqlı olaraq bildirildi ki, dünyanın ən iri qaz yataqlarına aid "Şahdəniz" müqaviləsi dəqiqliklə 30 il əvvəl, 1996-cı ilin iyununda imzalanıb. Beləliklə, sayı artan ölkələrin enerji təhlükəsizliyinə töhfə verən Azərbaycanın müasir qaz hasilatında yeni səhifə açıldı", - deyə Prezident İlham Əliyev çıxışı zamanı bildirib.




*Prezident İlham Əliyev: "Azərbaycan ilk ölkə idi ki, Xəzərin ehtiyatlarını beynəlxalq neft şirkətlərinə açıq etdi"*

Bu il keçirilən tədbir regional enerji əməkdaşlığına, enerji təhlükəsizliyinə və beynəlxalq bazarlara enerji təchizatının şaxələndirilməsinə əhəmiyyətli töhfələr verən əlamətdar bir inkişaf olan "Şahdəniz" layihəsinin 30-cu ildönümü qeyd olunduğu üçün əhəmiyyət kəsb edir. 2026-cı ildə keçirilən tədbir yeni iştirakçılar və milli pavilyonlar da daxil olmaqla 46 ölkədən 270-dən çox şirkəti bir araya gətirdi ki, bu da Azərbaycanın enerji sektoruna artan beynəlxalq marağı və ölkənin uzunmüddətli strateji potensialına inamı aydın şəkildə əks etdirmiş oldu. Prezident İlham Əliyev Bakı Enerji Həftəsinin rəsmi açılış mərasimində çıxış edərək Azərbaycanın beynəlxalq enerji sistemində oynadığı mühüm rolu, enerji təhlükəsizliyinə verdiyi töhfələri və gələcək strateji hədəflərini diqqətə çatdırdı.

Prezident cənab İlham Əliyev qeyd edib ki, biz hamımız enerji təhlükəsizliyindən danışırıq, xüsusilə indi Yaxın Şərqdəki böhran bir çox ölkələrin, istehsalçı və istehlakçıların enerji təhlükəsizliyinə ciddi zərbə vurduğu vaxtda: "Biz bunun üzərində uzun illər çalışmışıq. Biz böyük sərmayələr yatırmışıq və Xəzər dənizini Aralıq dənizi ilə ilk dəfə birləşdirən Bakı-Tbilisi-Ceyhan, Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı-Supsa neft kəmərləri kimi irimiqyaslı infrastruktur layihələrinə başlamışıq" –deyə qeyd edib.

### "BU GÜN AVROPA ENERJİ BAZARININ CƏNUB QAZ DƏHLİZİ OLMADAN NECƏ OLACAĞINI TƏSƏVVÜR ETMƏK ÇƏTİNDİR"

Son illər Azərbaycanın artan iqtisadi imkanları, yerləşdiyi əlverişli coğrafi mövqeyindən faydalanmaq bacarığı, beynəlxalq aləmə inteqrasiyası onun dünya ölkələri ilə əlaqələrinə müsbət təsir göstərib. Azərbaycan ilə dünya ölkələri arasında ikitərəfli münasibətlər iqtisadi, ticari, enerji, turizm və digər sahələri əhatə edir. Beynəlxalq hüquq normalarına, qarşılıqlı inam və etimada, faydalı əməkdaşlığa əsaslanaraq, xarici siyasətini həyata keçirən Azərbaycanla qarşılıqlı etimad səviyyəsində qurulan diplomatik əlaqələr yüksək bir mərhələdədir. Son 22 il ərzində aparılan xarici siyasət, ölkədə həyata keçirilən sistemli islahatların nəticəsi olaraq xalqın həyatını köklü şəkildə dəyişməsi, 2020-ci ildə İlham Əliyevin qətiyyəti sayəsində torpaqlarımızın işğaldan azad edilməsi və 2023-cü ilin sentyabrında Xankəndiyə bayrağımızın asılması ölkəmizin imicinin daha da yüksəlməsinə səbəb oldu. Böyük nailiyyətlərin müəllifi olan Prezident İlham Əliyev dünya liderləri arasında da seçilən dövlət başçılarından biridir. "Bakı Enerji Həftəsi" isə öz növbəsində enerji sektorundakı aktual məsələlərin müzakirə edildiyi və enerji sənayesində əhəmiyyətli tərəflərin bir araya gəldiyi bir platformadır. Bu tədbir dünya miqyasında enerji təhlükəsizliyi, enerji istehsalı, nəqliyyatı və digər əhəmiyyətli məsələləri müzakirə etmək üçün beynəlxalq nümayəndələri və təşkilatları cəlb edir.

Bu gün Azərbaycan dünyanın enerji təhlükəsizliyində xüsusi çəkisi olan ölkələr sırasında yer alır. Azərbaycan davamlı surətdə enerji təhlükəsizliyinin gücləndirilməsində etibarlı tərəfdaşa çevrilib.

***Zümrüd BAYRAMOVA***

# Prezident İlham Əliyev Mərkəzi Bankın yeni binasının açılışında iştirak edib

*Azərbaycan Prezidenti İlham Əliyev Mərkəzi Bankın yeni inzibati binasının açılışında iştirak edib. Mərkəzi Bankın sədri Taleh Kazımov dövlətimizin başçısına binada yaradılmış şərait barədə məlumat verdi. Yeni bina paytaxtın Heydər Əliyev prospektində yerləşir. Müasir şəhərsalma prinsiplərinə uyğun inşa edilmiş bina yüksək funksionallığa və qabaqcıl texnoloji göstəricilərə malikdir. Prezident İlham Əliyev milli pul nişanlarının konseptual yanaşmasının, dizayn xüsusiyyətlərinin və texnoloji inkişaf xəttinin müasir təqdimat üsulları ilə nümayiş olunduğu sərgiyə baxdı.*

Bildirildi ki, sərgidə milli pul nişanlarının tarixi, inkişaf mərhələləri, dizayn və mühafizə elementləri əks olunub. Bina 35 mərtəbədən ibarətdir, burada ümumilikdə 1300 nəfərlik iş sahəsi, konfrans və mətbuat zalları, müxtəlif təlim və toplantı otaqları var.Yeni binanın layihələndirilməsi zamanı əlçatanlıq və inklüzivlik prinsiplərinə xüsusi diqqət yetirilib, fiziki məhdudiyyətli şəxslərin binaya rahat və təhlükəsiz şəkildə girişinin, həmçinin sərbəst hərəkətinin təmin edilməsinə imkan verən infrastruktur yaradılıb. Binada





rəsmi görüş və toplantılar üçün 25 otaq nəzərdə tutulur. Otaqların hamısı zəruri avadanlıqla təchiz olunub. Yüksək keyfiyyət, təhlükəsizlik və dayanıqlı inkişaf standartlarına cavab verən binada müasir texnologiya və informasiya sistemləri də quraşdırılıb. Burada, həmçinin əməkdaşların asudə vaxtının səmərəli təşkili məqsədilə istirahət məkanı yaradılıb, 340 nəfərlik yeməkxana da onların ixtiyarına veriləcək. Müxtəlif tədbirlərin və təqdimatların keçiriləcəyi 240 nəfərlik konfrans zalında isə hər bir şərait mövcuddur. Gecə saatlarında binanın vizual tanınmasını təmin edən multimedia fasad sistemi müxtəlif işıq ssenarilərinin və proyeksiyaların tətbiqinə imkan verir. Fasad da daxil olmaqla, ərazinin və binanın işıqlandırılması hərəkət sensorlu LED texnologiyası ilə təchiz olunub. Bu isə öz növbəsində günün işıqlı saatlarında elektrik enerjisinə qənaət etməyə imkan verir.



# “Milli kimliyin formalaşmasında mənəvi dəyərlərin rolu”





***Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və partiyanın Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə Göygöl rayonunda yerləşən Yaylaq düşərgəsində keçirilən “Heydər Əliyev məktəbi” layihəsinin üçüncü günündə gənc fəallarla “Milli kimliyin formalaşmasında mənəvi dəyərlərin rolu” mövzusunda görüş keçirilib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***

Görüşdə çıxış edən YAP İdarə Heyətinin üzvləri, Milli Məclisin deputatları Mübariz Qurbanlı və Hikmət Babaoğlu, YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İskəndərov “Heydər Əliyev Məktəbi” layihəsinin əhəmiyyətindən danışıblar. Bildirilib ki, milli-mənəvi dəyərlər xalqımızın əsrlər boyu formalaşan milli kimliyinin qorunması və inkişaf etdirilməsində mühüm rol oynayır. Qeyd olunub ki, Azərbaycan xalqının milli kimliyi dilimiz, adət-ənənələrimiz, ailə dəyərlərimiz, böyüyə hörmət və kiçiyə qayğı kimi xüsusiyyətlər üzərində formalaşıb və nəsildən-nəslə ötürülüb.

Çıxışlarda vurğulanıb ki, qloballaşma şəraitində gənclər üçün yeni imkanlar yaransa da, milli kimliyin qorunması məsələsi daha da aktuallaşır. İnformasiya axınının sürətlə artdığı müasir dövrdə gənclərin öz milli köklərinə bağlı qalması, tarixi və mədəni irsini dərindən öyrənməsi xüsusi əhəmiyyət kəsb edir. Mənəvi dəyərlər insanın şəxsiyyət kimi formalaşmasında, vətənə bağlılığının güclənməsində və vətəndaş məsuliyyətinin inkişafında mühüm rol oynayır.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunması, milli kimliyinin möhkəmləndirilməsi və dövlətçilik ənənələrinin inkişaf etdirilməsi istiqamətində gördüyü mühüm işlərdən bəhs olunub. Qeyd edilib ki, Ulu Öndərin rəhbərliyi dövründə Azərbaycan dili, milli mədəniyyət, ədəbiyyat və tarixi irs dövlət qayğısı ilə əhatə olunub, azərbaycançılıq ideologiyası isə milli birliyin əsas sütunlarından birinə çevrilib.

Heydər Əliyevin əsasını qoyduğu siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının təşəbbüsü ilə tarixi və mədəni abidələrin bərpası, Azərbaycan dilinin inkişafı və milli-mədəni irsin beynəlxalq səviyyədə tanıdılması istiqamətində mühüm layihələr həyata keçirilir. Eyni zamanda, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi və milli kimliyə bağlılığının gücləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi qeyd olunub.

Vurğulanıb ki, mənəvi dəyərlər yalnız milli ənənələrin qorunması ilə məhdudlaşmır. Ədalət, dürüstlük, məsuliyyət, elm və biliyə hörmət kimi keyfiyyətlər cəmiyyətin inkişaf səviyyəsini müəyyən edən əsas amillərdəndir. Xüsusilə gənclərin milli kimliyinin formalaşmasında təhsilin roluna diqqət çəkən natiqlər bildiriblər ki, təhsil yalnız bilik vermir, həm də insanın mənəvi dünyasını zənginləşdirir, onun milli-mədəni irsə münasibətini formalaşdırır.

Qeyd olunub ki, mənəvi dəyərlər cəmiyyətin mənəvi təhlükəsizliyinin təmin olunmasında da mühüm rol oynayır. Milli kimliyin qorunması isə dövlətin, ailənin, təhsil müəssisələrinin və bütövlükdə cəmiyyətin ortaq məsuliyyətidir. Layihə iştirakçıları Nigar Məmmədova, Qədir Məmmədov, Pəri Muradlı, Nuranə Rzayeva, Rəşad Məhərrəmov və digərləri mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Daha sonra layihə iştirakçıları üçün “Mənim xəyalımdakı ağıllı kənd” mövzusunda Yaradıcılıq Atelyesi (Workshop) müsabiqəsi təşkil olunub. Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) Dizayn fakültəsinin dekanı, dosent Fərid Kərimovun moderatorluğu ilə keçirilən müsabiqədə gənclər dörd komanda şəklində iştirak edərək gələcəyin yaşayış məskənlərini öz baxışları əsasında dizayn ediblər.

Təqdimatlardan sonra müsabiqənin nəticələri açıqlanıb və “Şirvanşahlar sarayı” komandası qalib elan edilib. Daha sonra YAP İdarə Heyətinin üzvü, partiyanın Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov və YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov gənclərlə fikir mübadiləsi aparıblar. Görüşdə gənclərin layihə ilə bağlı fikirləri dinlənilib, iştirakçılar tərəfindən təkliflər səsləndirilib. Bu kimi tədbirlərin gənclər arasında ünsiyyətin genişlənməsinə və onların mədəni istirahətinin səmərəli təşkilinə töhfə verdiyi xüsusi vurğulanıb.



# Ermənistanda rəqabət, ittiham və səs uğrunda savaş...

## *Ermənistanda keçiriləcək parlament seçkilərinə Kremldən baxış*

Ermənistanda parlament seçkilərinə sayılı günlər qalıb. Baş nazir Nikol Paşinyan kampaniyasını başa vurur və əsas müxalifət qüvvəsi Samvel Karapetyanın ”Güclü Ermənistan” bloku əsas mesajla mitinq keçirib: ölkədə dəyişiklik çox tezliklə baş verə bilər, sadəcə düzgün seçim etməlisiniz. Rusiyalı müxbirlər seçkilər ərəfəsində İrəvanda sakinlər arasında qarşıdan gələn seçkilərlə bağlı sorğu keçiriblər. İrəvan bu günlərdə adi həyatını yaşayır, amma yaxınlaşan seçki gününün əlamətlərini görməmək mümkün deyil, hər yerə namizədlərin şəkilləri yapışdırılmış bannerlər, kafe masalarında səs-küylü siyasi debatlar və siyasi fəalların qəzəbli etirazları. İnsanlar 7 iyun parlament seçkilərindən sonra həyatlarının necə dəyişəcəyini gözləyirlər. Lakin, görünür, hamı dəyişiklik istəmir.

Bu məsələ ilə bağlı fikirlər çox müxtəlifdir. Avropa Komissiyasının prezidenti Ursula fon der Leyenin bu yaxınlarda qonaq olduğu ”The Alexander” otelində işləyən şən və gülərüz Vazgen Abovyan küçəsindəki piyada keçidindəki xalçanın şəklini necə çəkdiyini qürurla danışır. O, bu hekayəni Nikol Paşinyanın dövründə Ermənistanda həyatın necə yaxşılaşdığının sübutu kimi göstərib. O, dəfələrlə təkrarlayır ki, ”onlardan” heç kim Qərblə Paşinyanın sahib olduğu münasibətlərə, iqtisadi artıma və iş yerlərinin artmasına nail olmayıb. ”Onlar” dedikdə, əlbəttə ki, o, ilk növbədə 1998-ci ildən 2008-ci ilə qədər bu vəzifəni tutan, lakin hələ də Ermənistan blokuna rəhbərlik edən və hakimiyyətə qayıtmaq üçün yorulmadan mübarizə aparan Ermənistanın keçmiş prezidenti Robert Köçəryanı nəzərdə tutur. O, seçki kampaniyası çərçivəsində Ermənistanı gəzir, blokunu dəstəkləyən mitinqlər keçirir və tez-tez jurnalistlərlə danışır. Düzdür, Köçəryanın mənfi reytinqləri o qədər yüksəkdir ki, müxalifətin qalan hissəsi onunla birləşmək istəmir.

Lakin bu məsələ ilə bağlı başqa fikirlər də var. ”Koçaryan da edərdi”, - deyə bir kişi ”Güclü Ermənistan” blokunun mitinqi zamanı bildirib və görünür, Karapetyanın keçmiş prezidentlə birləşməsi ehtimalına işarə edib. Samvel Karapetyanın tərəfdarları iyunun 4-də Komitas prospektindən mərkəzi Respublika meydanına, yəni şəhərin əsas küçələrindən keçərək böyük bir yürüş təşkil ediblər. Maraqlıdır ki, mitinq iş adamının dövlət çevrilişinə çağırış ittihamı ilə həbs olunmasından təxminən bir il sonra təşkil edilib və hələ siyasi partiyaya çevrilməmiş ”Po-Naşemu” hərəkatı ilk yürüşünü keçirib. Məhz o zaman Karapetyanın ciddi siyasi ambisiyaları inkişaf etdirdiyi və baş nazirlik uğrunda yarışa qoşulmağa hazır olduğu məlum olub. ”O, normal bir ermənidir”, - yürüş iştirakçılarından biri onun haqqında deyib. Və çoxları onun haqqında hörmətlə, lakin qısa şəkildə danışır. Məsələn, ”əsl erməni” ifadəsi də eşidilib. Bunun əslində nə demək olduğunu - normal və səmimi olmağı görmək qalıb. ”Bu, onun hərəkətlərindən və xarakterindən aydındır”, - deyə tərəfdarları izah edirlər. ”O, Ermənistan haqqında düşünür. Gələcək haqqında”.

”Bu cür şeylər burada tez-tez baş verir”, Diana adlı gənc bir qadın Geqamın üzünə baxaraq narazılıqla pıçıldayır. Qarabağda kökləri olan bir erməni olan Geqam 29 ilinin 20 ilini Stavropolda yaşayıb və orada politologiya və sosiologiya təhsili alıb. İki il əvvəl o, Rusiyanı tərk edib Ermənistana qayıtmaq və fotoqrafiya ilə məşğul olmaq qərarına gəldi: bəzən siyasi tədbirlərdə iştirak edir, digər günlərdə isə sərhəd bölgələrinə səyahət edir və adi insanların həyatını çəkir. Əvvəlcə düşünürdüm ki, o, sadəcə Ermənistanda daha çox xoşuna gəlir. Yaxud bəlkə də hər şeyin fərqli olacağına ümid edirdi. Amma mərkəzi küçələrdə gəzərkən, etirazçılarla həmrəylik ifadə edən yüksək şüarlar və maşınların siqnalı ilə bir-birimizi eşitməyə çalışarkən aydın oldu ki, o, burada heç nəyi sevmir. ”Bölgələrdəki insanlar mənə tez-tez deyirlər: burada hər şey yaxşı olacaq, biz buna inanırıq. Amma görürəm ki, onlar buna inanmırlar. Gorusda (Azərbaycanla həmsərhəd şəhər) bir qoca kişinin şəklini çəkdim. O, mənə dedi: ”Şəkil çəkdiyin üçün təşəkkür edirəm. Tezliklə hər şeyi itirəcəyik, heç olmasa bir fotoşəkildə burada yaşadığımız aydın olacaq”, - deyə Diana mövcud hökumətin və onun qərarlarının səhvlərini düşünərək bildirir. O, əlavə edir: ”Amma müxalifətin nə təklif etdiyini belə başa düşmürəm”.

Hamı belə düşünmür. Məsələn, bəziləri Samvel Karapetyanın seçkilərdə qalib gələcəyini əminliklə bəyan edirlər, baxmayaraq ki, o, sorğularda digər müxalifət qüvvələri arasında lider olaraq qalsa da, hələ də hakim Vətəndaş Müqaviləsi Partiyasından geri qalır. ”İnanırıq! Şans var”, - deyə ümidlə dörd gənc qadın Samvel Karapetyanın qələbəsinin və dəyişikliyin gələcəyinin ehtimalını qiymətləndirərək bildirirlər. Onlar Ermənistanı sevirlər, amma ”hər şeyi yox”, - deyə dostlar etiraf etdilər.

Nümayişçilər Respublika Meydanına çatanda “Güclü Ermənistan”ın lideri böyük ekranda peyda olub, o, ev dustaqlığında olduğu evinin qapısından canlı yayıma çıxıb. İş adamı və rüsvay edilmiş siyasətçi seçkilərdən sonra insanların həyatında real dəyişikliklərin başlaya biləcəyinə əminlik verib. “7 iyun tarixə erməni xalqının güclü və azad Ermənistanda yaşamağı seçdiyi gün kimi düşəcək”, - Karapetyan deyib. Mitinqin mərkəzinə yaxın küçənin kənarında, təxminən dörd saatlıq etirazdan sonra yorğun olan orta yaşlı bir kişi oturub narahatlıqla təsbehlərini barmaqları ilə işarələyirdi...

***V.VƏLİLİ***
***(Tərcümə)***





# “Heydər Əliyev və Azərbaycan memarlığının inkişaf strategiyası”

***Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatı və partiyanın Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə Göygöl rayonu ərazisində yerləşən Yaylaq düşərgəsində keçirilən “Heydər Əliyev məktəbi” layihəsinin ikinci günündə gənc fəallarla “Heydər Əliyev və Azərbaycan memarlığının inkişaf strategiyası” mövzusunda görüş keçirilib.***



Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Görüşdə iştirak edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə və AzMİU-nun Memarlıq fakültəsinin dekanı Zahidə Məmmədovanın çıxışlarında bildirilib ki, Ulu Öndər Heydər Əliyev ölkənin inkişafını yalnız iqtisadi göstəricilərlə deyil, həm də şəhərlərin estetik görünüşü, yaşayış mühiti və mədəni irsin qorunması ilə əlaqələndirirdi. Ümumilli Liderimizin müəyyən etdiyi inkişaf xətti nəticəsində hələ 1969-cu ildən başlayaraq Azərbaycan şəhərlərində sistemli şəhərsalma prinsiplərinin tətbiqinə başlanılıb, müasir infrastrukturun yaradılması ilə yanaşı, milli memarlıq xüsusiyyətlərinin qorunması prioritet istiqamət kimi müəyyənləşdirilib.



Vurğulanıb ki, hələ Sovet İttifaqı zamanında ölkəmizə rəhbərlik etdiyi dövrlərdə Ulu Öndər Heydər Əliyevin Azərbaycan memarlığının inkişafına dair baxışları ilk növbədə regionların tarazlı inkişafı prinsipinə əsaslanırdı. Ulu Öndər hesab edirdi ki, müasir şəhərsalma yalnız paytaxtın deyil, bütün bölgələrin sosial-iqtisadi inkişafına xidmət etməlidir. Məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə rayon mərkəzlərinin yenidən qurulması, yeni sosial obyektlərin yaradılması və yaşayış məkanlarının abadlaşdırılması istiqamətində mühüm layihələr həyata keçirilib. Bu siyasət nəticəsində memarlıq ölkənin inkişaf proqramlarının ayrılmaz hissəsinə çevrilib. O da qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin ölkəmizdə memarlığın və şəhərsalmanın inkişafına göstərdiyi ən böyük diqqət, bu istiqamətdə atılan ən mühüm addım Azərbaycan memarlıq məktəbinin institusionallaşdırılması – Azərbaycan Memarlıq və İnşaat Universitetinin fəaliyyətə başlamasıdır. Məhz həmin dövrdən başlayaraq memarlıq və şəhərsalma üzrə elmi araşdırmaların genişləndirilməsi, layihələndirmə institutlarının fəaliyyətinin gücləndirilməsi və peşəkar kadr hazırlığının təkmilləşdirilməsi üçün əlverişli şərait formalaşıb.

Diqqətə çatdırılıb ki, bu gün Azərbaycanın beynəlxalq şəhərsalma gündəmində fəal iştirak etməsi də əsası Ulu Öndər tərəfindən qoyulan uzaqgörən siyasətin davamlılığının nəticəsidir. Bakıda keçirilən WUF13 kimi mötəbər forum ölkəmizin qlobal urbanizasiya proseslərinə verdiyi töhfənin göstəricisidir. Forum çərçivəsində dayanıqlı şəhərlər, yaşıl inkişaf, innovativ şəhər idarəçiliyi və insan yönümlü məkanların formalaşdırılması kimi məsələlər müzakirə olunub. Azərbaycanın bu mötəbər tədbirə ev sahibliyi etməsi ölkəmizin beynəlxalq etimad qazandığını və şəhərsalma sahəsində nümunəvi təcrübəyə malik olduğunu nümayiş etdirib. Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı memarlıq strategiyası bu gün də aktualdır. Müasir şəhərsalma çağırışlarına uyğun yenilənən Azərbaycan şəhərləri milli dəyərlərə söykənən inkişaf modelini uğurla davam etdirir. Bu model həm şəhər mühitinin keyfiyyətini yüksəldir, həm də ölkəmizin beynəlxalq nüfuzunu gücləndirir.

Görüşdə gənc fəallardan Nazpəri Rzayeva, Pəri Muradlı, Qədir Məmmədov, Şölə İsmayılova və başqaları mövzu ilə əlaqədar öz fikirlərini bölüşüblər. Sonra görüş iştirakçılarının sualları cavablandırılıb. Layihədə iştirak edən gənclər daha sonra Gəncə şəhərinə ekskursiya edərək şəhərin tarixi memarlıq inciləri ilə tanış olublar. Nizami Gəncəvi məqbərəsi, Gəncə qala qapıları, Heydər Əliyev parkı, Şah Abbas məscidi, Gəncə şəhər Flarmoniyası, Cavad xan məqbərəsi, eləcə də modern Gəncədə gedən quruculuq işləri gənc partiya fəallarında böyük təəssürat oyadıb.



Elçin Bayramlı

# İldə 100 minə yaxın körpəni qətlə yetirən cəmiyyət

***Son məlumata görə, Azərbaycanda ildə 100 minə yaxın körpə abortla qətl edilir. 2025-ci ildə ölkədə doğulan uşaq sayı 95 mindən çox olub, abortlar da 95 mindən çox olub. Deməli, hətta rəsmi rəqəmlərə görə belə hər 2 körpədən 1-i ana bətnində öldürülüb. Lakin heç də bütün abortlar rəsmi qeydiyyata alınmır, ona görə də, ekspertlər real rəqəmin bundan xeyli çox olduğu güman edirlər. Bunların əhəmiyyətli bir hissəsini selektiv abortlar təşkil edir. Əsasən, ana bətnindəki körpənin qız olduğu bilinəndə aborta məruz qoyulur. Nəticədə, yeni nəsildə cinsi balans getdikcə pozulur. Bu ilin yanvar-mart aylarında Azərbaycanda doğulan körpələrin 53,8 faizi oğlan, 46,2 faizi qız olub.***

1991-ci ildə hər 1000 kişiyə 1048 qadın düşüb. 2005-ci ildə hər 1000 kişiyə 1032 qadın, 2025-ci ildə isə hər 1000 kişiyə 1009 qadın qeydə alınıb. Hazırda ölkə əhalisinin 49,8 faizini kişilər, 50,2 faizini qadınlar təşkil edir.

Doğulan körpələr arasında qız uşaqlarının sayının azalmasının ən böyük səbəbi selektiv abortlardır. Bu məsələdə biz adətən dünyada 1-ci və 2-ci yerdə oluruq. Selektiv abortlar son dövrlər ölkəmizdə kütləvi şəkildə həyata keçirilir. Bizdə abort statistikası çox yüksəkdir. İldə təxminən 100 minə yaxın abort 10 milyonluq əhali üçün həddən artıq çoxdur.

Əsas məsələ abort cinayətinin qarşısını almaqdır. Söhbət təkcə selektiv abortdan deyil, ümumiyyətlə abortdan gedir. Abort qətl hadisəsidir, canlı bir insanın öldürülməsidir. Bunun qarşısı alınmalıdır, hüquq sistemində ağır cəza kimi qəbul olunmalı və cəzalandırılmalıdır. Abortlar cəmiyyətdə demoqrafik balansa mənfi təsir göstərir, mənəvi-sosial problemlər yaradır. Ona görə bu məsələ həll olunmalıdır. Bir çox ölkədə abort ağır cinayət sayılır və ciddi cəzalandırılır. Bizdə də bunu eləməyə ehtiyac var.

Cins bölgüsündə tarazlığı süni şəkildə stimullaşdırıb tənzimləməyə ehtiyac yoxdur. Təbiət özü bütün canlı növlərində cins fərqini balanslaşdırır. Min illərdir insan cəmiyyətində balans 50/50-yədir, uzağı 49/51 olur. Bu bərabər balansdır. Biz süni müdaxilə, selektiv abortlar eləməsək və yaxud ölkələr uzunmüddətli, dağıdıcı müharibə aparmasalar, cinsi balansda problem yaranmır. Eləcə sadə qaydalarla, düzgün bioloji sistemlə yaşamaq kifayət eləyir ki, təbiət öz balansını formalaşdırsın. Bu balans yalnız süni yolla dəyişdirilə bilər. Buna da ən böyük səbəb selektiv abortdur. Uzunmüddətli müharibələr nəticəsində oğlanların məhv olması da cins balansını dəyişə bilir.

Mən illərdir təklif eləyirəm ki, abortlara görə ağır cəzalar qoyulsun, abort qadağan olunsun. Çünki bütün dünya alimlərinin ümumi rəyinə görə, artıq 6 həftəlik körpə tam bir insan formasına malikdir. O, artıq insandır. Bir sözlə, abort birbaşa uşağın qətlə yetirilməsidir. Ona görə abort qətlə bərabər bir cinayət kimi cəzalandırılmalıdır.

Abort hələ doğulmağa imkan tapmamış körpələrə qarşı fiziki terror olmaqdan əlavə həm də, ananın sağlamlığının məhv edilməsi deməkdir. Abortlar cəmiyyəti xəstə vəziyyətə salır, demoqrafik vəziyyəti ağırlaşdırır, milli genefondu məhv edir.

Azərbaycanda həkimlərə uşağın cinsini deməsi qadağan olunsa da, bu qadağaya əməl olunmur, valideynlər həkimlərdən uşağın cinsini öyrənir və qız uşağıdırsa abort edirlər.Buna görə cəzalar dəfələrlə sərtləşdirilməlidir.

Xəstəxanalarda abort qadağan olunmalı, bunu edən həkimlər cəzalandırılmalıdır. Yalnız bu halda cins balansı bərpa olunacaq. Təbiət özü elə tənzimləyəcək ki, yenə qız-oğlan doğumu 50/50 və yaxud 51/49 civarında olacaq. Min illərdir insan cəmiyyətində həmişə belə olub. Bütün digər canlılarda da bu balans tam bərabər və bərabərə yaxın bir formada olur.

Yeni, təbiətin balansı yalnız süni yollarla pozulur və bu, insan cəmiyyətinin öz problemidir. Bu problemi qaydaya salmaq, düzgün bioloji qaydalarla yaşamaq gərəkdir. Qeyd etdiyim kimi, sərt cəzalar tətbiq etməklə bu cinayətin qarşısını almaq, yeni həm də cins bölgüsündə tarazlığı qorumaq mümkündür.

# “Heydər Əliyev məktəbi” layihəsinin açılış mərasimi keçirilib



***İyunun 1-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və partiyanın Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində təşkil olunan “Heydər Əliyev məktəbi” layihəsinə start verilib.***

Əvvəlcə Gəncə şəhərində müasir müstəqil Azərbaycanın qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunub, dahi şəxsiyyətin əziz xatirəsi ehtiramla yad edilib. Göygöl rayonu ərazisində yerləşən Yaylaq düşərgəsində keçirilən layihənin açılış mərasimində Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Giriş nitqi ilə çıxış edən YAP Gəncə şəhər təşkilatının sədri, partiyanın İdarə Heyətinin üzvü Bayram Aslanov layihənin ilk gününün “Dövlət gənclər siyasəti” mövzusuna həsr olunduğunu diqqətə çatdırıb. Qeyd edib ki, “Heydər Əliyev məktəbi”nin təşkil olunmasında məqsəd partiya üzvlərinə Heydər Əliyev irsini hərtərəfli çatdırmaqdır. B.Aslanovun sözlərinə görə, Dağlıq Şirvan və Şəki-Zaqatala regionlarından olan gənclərin iştirak etdiyi layihə çərçivəsində onların sosial fəallığının artırılması, liderlik bacarıqlarının inkişaf etdirilməsi, asudə vaxtlarının səmərəli təşkili məqsədilə dəyirmi masalar, maarifləndirici görüşlər, intellektual oyunlar, müxtəlif əyləncəli proqramlar və ekskursiyalar təşkil olunacaq.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov Azərbaycan gənclərinin milli ruhlu vətəndaş kimi formalaşmasında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb. O qeyd edib ki, Ulu Öndərin əsasını qoyduğu dövlət gənclər siyasəti uğurlu inkişaf konsepsiyasının əsas dayağına çevrilib və Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir: “Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında Prezident İlham Əliyevin rəhbərliyi dövründə yetişən gənclərin qəhrəmanlığı nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunub. Bu gün ölkə gəncləri siyasi, iqtisadi, elm, innovasiya və digər sahələrdə Azərbaycanı beynəlxalq arenada layiqincə təmsil edir və dövlət bayrağımızı daha da yüksəklərə qaldırırlar”, - deyə Ş.İsmayılov vurğulayıb. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin uğurlu gənclər siyasəti nəticəsində ölkədə vətənpərvər, milli dəyərlərə bağlı, müasir düşüncəli gənc nəsil formalaşıb. O bildirib ki, müasir gənclər həm elmi biliklərə yiyələnir, həm də milli-mənəvi dəyərlərə sadiqliyini qoruyurlar.

N.Bayramov vurğulayıb ki, ölkədə gənclərin hərtərəfli inkişafı üçün yaradılan imkanlar onların peşəkar bilik və bacarıqlarını artırmalarına, beynəlxalq təcrübə əldə etmələrinə və müxtəlif sahələrdə nailiyyətlər qazanmalarına şərait yaradır: “Müasir Azərbaycan gəncliyi daim öz üzərlərində işləməli, məsuliyyətli, yenilikçi olmalı və təşəbbüskar davranmalıdırlar. Ən vacib xüsusiyyətlərdən biri isə liderlik bacarıqlarıdır. Bu bacarıqlar gənclik dövründə “Heydər Əliyev məktəbi” kimi layihələrdə və müxtəlif ictimai fəaliyyətlərdə iştirak etməklə formalaşır”.



Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov Azərbaycanın müstəqillik tarixində müstəsna xidmətləri olan Ulu Öndər Heydər Əliyevin zəngin siyasi irsindən bəhs edib. O bildirib ki, bu gün Azərbaycan gəncliyi Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının uğurla davam etdirilməsi nəticəsində daha güclü və qüdrətli bir ölkədə yaşayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün sahələrdə mühüm nailiyyətlər əldə edib və gənclər üçün geniş imkanlar yaradılıb. Dövlət başçısının da vurğuladığı kimi, Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Bu gücün əsasında Heydər Əliyev siyasi kursunun uğurla davam etdirilməsi, xalqın dövlətə olan inamı və gənclərin Vətənə sədaqəti, milli dəyərlərə bağlılığı dayanır.

Çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsi müdirinin müavini Rafael Gülməmmədov Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr verdiyini deyib. O qeyd edib ki, Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasi xətt nəticəsində hazırda YAP-ın sıralarında on minlərlə gənc təmsil olunur: “Yeni Azərbaycan Partiyası Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi ideoloji xətti əsas götürərək cəmiyyətin müxtəlif təbəqələrini, xüsusilə də gəncləri öz ətrafında birləşdirərək ölkənin gələcək inkişafına xidmət edən layihələrə dəstək verir. Təsadüfi deyil ki, “Heydər Əliyev məktəbi” layihəsinin iştirakçıları da məhz milli dəyərlərə bağlı, vətənpərvər və prinsipial mövqeyi ilə seçilən Azərbaycan gəncləridir”.



Çıxış edən gənc partiya fəalları Nazpəri Rzayeva və Nuranə Mirzəyeva gənclərin Heydər Əliyevin zəngin siyasi və mənəvi irsdən bəhrələnmələrinin onların vətənpərvər və məsuliyyətli vətəndaş kimi yetişməsində mühüm rol oynadığını diqqətə çatdırıblar. Açılış mərasimindən sonra gənclər arasında komanda şəklində idman oyunları keçirilib, əyləncə proqramları təşkil olunub.

# “Gəncə hadisələri və Ulu Öndərin qayıdışı müasir dövlətçilik tarixinin dönüş nöqtəsidir”

***“Gəncə hadisələri XX əsrin sonlarında Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərinə təsadüf edən mürəkkəb tarixi-siyasi şəraitin nəticəsi kimi qiymətləndirilir. 1990-cı illərin əvvəllərində ölkə dərin siyasi böhran, idarəetmədə pərakəndəlik, iqtisadi tənəzzül və hərbi-siyasi qeyri-sabitliklə üz-üzə idi. Mərkəzi hakimiyyət institutları tam formalaşmamış, dövlət idarəçiliyi sistemində koordinasiya zəifləmiş, bəzi hallarda isə paralel güc mərkəzləri meydana çıxmışdı”.***



Bu sözləri SİA -ya açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirib. Onun sözlərinə görə, bu dövrdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ mnaqişəsi artıq genişmiqyaslı hərbi qarşıdurma xarakteri almış, Azərbaycanın bir sıra əraziləri işğal edilmişdi: ”Ordunun vahid komandanlıq altında olmaması, könüllü dəstələrin və ayrı-ayrı silahlı qrupların fəaliyyət göstərməsi ölkədə hərbi nizam-intizamı zəiflədirdi. Bu faktorlar dövlətin təhlükəsizlik sisteminə ciddi təzyiq göstərir, daxili sabitliyi risk altına alırdı. 1993-cü ilin iyununda Gəncədə baş verən hadisələr məhz bu ümumi böhranın kulminasiya nöqtələrindən biri kimi tarixə düşmüşdür. Hadisələr zamanı şəhərdə yaranmış gərginlik və silahlı qarşıdurma ölkədə mövcud olan siyasi etimadsızlığın və idarəetmə böhranının açıq təzahürü kimi qiymətləndirilir. Bu hadisələr təkcə lokal xarakter daşımır, eyni zamanda respublika miqyasında mövcud olan sistemli problemlərin nəticəsi idi. Tarixi mənbələr göstərir ki, həmin dövrdə müxtəlif regionlarda silahlı dəstələrin fəaliyyəti, mərkəzi hakimiyyətə tabe olmama halları və siyasi parçalanma meyilləri dövlətin bütövlüyünü ciddi şəkildə zəiflədirdi. Belə bir şəraitdə Gəncə hadisələri dövlət idarəçiliyində dönüşə ehtiyac olduğunu daha da kəskin şəkildə ortaya qoydu. Məhz bu tarixi mərhələdə Azərbaycan ziyalılarının, ictimai-siyasi qüvvələrin və geniş xalq kütlələrinin çağırışı ilə Heydər Əliyev ölkə rəhbərliyinə dəvət olundu. 1993-cü ilin iyun ayında Bakıya qayıdan Heydər Əliyev qısa müddət ərzində ölkədə vəziyyətin sabitləşdirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirməyə başladı. O, Gəncəyə səfər edərək vəziyyəti yerində qiymətləndirmiş, müxtəlif tərəflərlə görüşlər keçirmiş və böhranın səbəblərinin aradan qaldırılması üçün siyasi qərarlar vermişdir. 1993-cü ilin oktyabrında Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ölkənin dövlətçilik tarixində yeni mərhələnin başlanğıcı hesab olunur. Bu mərhələdə əsas prioritetlər dövlət institutlarının möhkəmləndirilməsi, hüquqi dövlət quruculuğu, nizami ordunun formalaşdırılması və ictimai-siyasi sabitliyin təmin olunması idi. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası hüquqi dövlət quruculuğunun əsasını qoydu və dövlət idarəçiliyinin institusional çərçivəsini müəyyənləşdirdi. Bu sənəd ölkənin gələcək inkişaf strategiyasının hüquqi bazası kimi çıxış etdi.İqtisadi sahədə həyata keçirilən islahatlar, xüsusilə “Əsrin müqaviləsi” (1994) çərçivəsində xarici investisiyaların cəlb olunması Azərbaycanın iqtisadi sisteminin formalaşmasına mühüm təsir göstərdi. Neft strategiyası ölkənin beynəlxalq iqtisadi inteqrasiyasını sürətləndirdi və maliyyə sabitliyinin təmin olunmasına şərait yaratdı.

Hazırkı mərhələdə həmin tarixi proseslərin nəticələri daha aydın şəkildə müşahidə olunur. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi, iqtisadi inkişafın sürətlənməsi və işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri həmin siyasi kursun davamı kimi qiymətləndirilir. Xüsusilə “Böyük Qayıdış” proqramı çərçivəsində həyata keçirilən layihələr ölkənin sosial-iqtisadi inkişafında yeni mərhələnin başlanğıcını göstərir. Gəncə hadisələri və onun ardınca baş verən siyasi proseslər Azərbaycanın müasir dövlətçilik tarixində dönüş nöqtəsi kimi çıxış edir və ölkənin sabit, hüquqi və inkişaf edən dövlət modelinə keçidində mühüm rol oynayır”.

***Günay Hacıyeva***

# DİQQƏT - bu şəxslər ölkədən çıxa bilməz!

***"Ölkədən çıxışa məhdudiyyət (praktikada "stop" kimi adlandırılır) şəxsin sərbəst hərəkət hüququna müdaxilə edən hüquqi tədbirdir. Bu tədbir yalnız qanunla müəyyən edilmiş hallarda və səlahiyyətli orqanların qərarı əsasında tətbiq edilir". Bu sözləri SİA-ya açıqlamasında vəkil Səma Əhmədova deyib.***





VƏKİL AÇIQLADI

O bildirib ki, ən geniş yayılmış hallardan biri məhkəmə qərarlarının icrası ilə bağlı borclardır. Əgər şəxs barəsində məhkəmə qərarı mövcuddursa və həmin qərar icra olunmursa, icra məmuru icra icraatı çərçivəsində ölkədən çıxışa məhdudiyyət tətbiq edə bilər. Bu, əsasən aliment borcları, bank və kredit öhdəlikləri, eləcə də fiziki və hüquqi şəxslərə olan digər pul tələbləri ilə bağlı olur. Burada əsas şərt sadəcə borcun mövcudluğu deyil, həmin borcun icra icraatına daxil edilmiş və icra olunmayan məhkəmə aktı olmasıdır:

"Ölkədən çıxışa məhdudiyyətin digər mühüm əsası cinayət təqibi ilə bağlı hallardır. Şəxs cinayət işi üzrə şübhəli və ya təqsirləndirilən şəxs qismində tanındıqda, ibtidai istintaq orqanı və ya məhkəmə tərəfindən onun ölkədən çıxmaması üçün qətimkan tədbiri seçilə bilər. Bu tədbir adətən istintaqdan yayınma riski, sübutların qorunması və ya məhkəmə prosesinin normal gedişinin təmin edilməsi məqsədilə tətbiq olunur.

Bundan əlavə, vergi və digər dövlət öhdəlikləri üzrə yaranmış borclar da ölkədən çıxışa məhdudiyyət üçün əsas yarada bilər. Vergi orqanları tərəfindən müəyyən edilən və icra olunmayan borclar məhkəmə qərarı əsasında icra icraatına yönəldilə bilər və nəticədə həmin şəxs barəsində sərhəd keçidinə məhdudiyyət tətbiq oluna bilər.

Ölkədən çıxışa qoyulan məhdudiyyət yalnız qanuni əsas aradan qalxdıqda ləğv edilir. Bu, borcun tam ödənilməsi, icra icraatının yekunlaşması, məhkəmə qərarının dəyişdirilməsi və ya cinayət işində qətimkan tədbirinin götürülməsi hallarında mümkündür. Nəticə etibarilə, "stop" tədbiri şəxsi hərəkət azadlığını məhdudlaşdıran inzibati cəza deyil, hüquqi öhdəliklərin icrasını təmin edən mexanizmdir və yalnız qanunla müəyyən edilmiş ciddi əsaslar mövcud olduqda tətbiq edilir".

***Ayşən Vəli***

# İşçilər brendin ən güclü hekayəçiləridir: səmimi korporativ kommunikasiya niyə vacibdir?

***Sosial media platformalarının inkişafı, istifadəçilərin artan media savadlılığı və süni intellekt texnologiyalarının yayılması nəticəsində insanlar məlumatın kim tərəfindən və necə çatdırıldığına da diqqət yetirirlər. Bu səbəbdən son illərdə dünya şirkətlərinin kommunikasiya strategiyalarında yeni bir tendensiya formalaşıb: işçilərin hekayələrinin brend kommunikasiya alətinə çevrilməsi.***




## Niyə məhz işçilər?

Bir təşkilatın fəaliyyətini, dəyərlərini və korporativ mədəniyyətini ən yaxşı tanıyan insanlar onun əməkdaşlarıdır. Onların gündəlik təcrübələri, peşəkar inkişaf yolları, əldə etdikləri uğurlar və qarşılaşdıqları çətinliklər şirkət haqqında ən etibarlı məlumat mənbələrindən biridir. Əgər əvvəllər korporativ kommunikasiya əsasən rəhbərlərin çıxışları və rəsmi bəyanatlar üzərində qurulurdusa, bu gün auditoriya real insan hekayələrinə daha çox inanır.

İşçi hekayələri:

- Brendə insan siması qazandırır;
- Auditoriyada etibar yaradır;
- Şirkətin dəyərlərini praktik nümunələrlə göstərir;
- İşəgötürən brendini gücləndirir;
- Müştərilərlə emosional əlaqə yaradır.

Həqiqi hekayələr etibarı artırır

İnsanlar statistik məlumatlardan daha çox insan təcrübələrini xatırlayırlar. Məhz buna görə əməkdaşların şəxsi inkişaf hekayələri, peşəkar nailiyyətləri və işə münasibətləri auditoriyada daha güclü təsir yaradır. Məsələn, hər hansı bir şirkətin əməkdaşı öz karyera yolundan, əldə etdiyi təcrübədən və təşkilatda qazandığı imkanlardan danışdıqda bu, reklam mətnindən daha inandırıcı görünür.

Belə hekayələr göstərir ki, brend sadəcə məhsul və ya xidmət təqdim etmir, eyni zamanda insanların inkişafına sərmayə qoyur.

## PR mütəxəssisinin rolu nədir?

Burada vacib məqam əməkdaşların nitqini tam şəkildə idarə etmək deyil.

PR mütəxəssisinin əsas vəzifəsi:

- Hekayənin istiqamətini müəyyənləşdirmək;
- Əsas mesajları formalaşdırmaq;
- Müsahibə və çıxışlara hazırlıq aparmaq;
- Kommunikasiya məqsədini izah etməkdir.

Lakin əməkdaşın fikirləri onun öz sözləri ilə ifadə olunmalıdır.

Səmimi kommunikasiya yalnız o zaman mümkün olur ki, insan öz fikirlərini rahat şəkildə ifadə edə bilsin. Həddindən artıq redaktə edilmiş və korporativ terminlərlə zənginləşdirilmiş mətnlər auditoriyada etibarsızlıq yarada bilər.

## Hər hekayənin öz platforması var

Kommunikasiyada məzmun qədər onun təqdim olunduğu platforma da vacibdir.

PR strategiyası hazırlanarkən aşağıdakı suallara cavab verilməlidir:

- Bu hekayə kimə ünvanlanıb?
- Auditoriya hansı platformalarda aktivdir?
- Hekayə hansı formatda daha təsirli görünəcək?

Məsələn:

### Sosial media

İşçinin gündəlik fəaliyyəti, iş prosesi və şəxsi təcrübələri qısa video və ya foto reportaj formatında təqdim edilə bilər.

### Korporativ sayt

Daha ətraflı müsahibələr, uğur hekayələri və layihə təqdimatları üçün ideal platformadır.

### Daxili kommunikasiya kanalları

İntranet sistemləri, korporativ bülletenlər və daxili tədbirlər əməkdaşların motivasiyasını artırmaq üçün effektiv vasitələrdir.

### Media materialları

Ekspert mövqeyinə malik əməkdaşların müsahibələri və şərhləri təşkilatın peşəkar nüfuzunu gücləndirir.

## Səhiyyə sektorunda işçi hekayələrinin rolu

Xüsusilə səhiyyə sahəsində insan faktoru əsas dəyər hesab olunur. Həkimlərin, tibb bacılarının, rezidentlərin və digər tibb işçilərinin peşə fəaliyyəti haqqında hekayələr cəmiyyətlə xəstəxana arasında etimad körpüsü yaradır.

Pasiyentlər yalnız tibbi xidmət deyil, eyni zamanda həmin xidməti göstərən insanların peşəkarlığı və insani keyfiyyətləri ilə də maraqlanırlar.

Bu səbəbdən səhiyyə müəssisələrinin kommunikasiya strategiyalarında:

- "Bir həkimin iş günü",
- "Ağ xalat arxasındakı insan",
- "Rezidentdən mütəxəssisə",
- "Tibb bacısının peşə yolu",
- "Əməliyyat otağından uğur hekayələri"

kimi layihələr xüsusi əhəmiyyət daşıyır.

## Nəticə

Güclü brend hekayələri reklam şöbəsində deyil, insanların yaşadığı real təcrübələrdə yaranır. Müasir PR yanaşması əməkdaşları sadəcə məlumat mənbəyi kimi deyil, təşkilatın əsas hekayəçiləri kimi görür. Səmimi, həqiqi və insan yönümlü kommunikasiya həm korporativ reputasiyanın möhkəmlənməsinə, həm də auditoriya ilə uzunmüddətli etimad münasibətlərinin qurulmasına xidmət edir. Unutmamalıyıq ki, insanlar loqolara deyil, insanlara inanırlar. Məhz buna görə hər bir təşkilatın ən dəyərli kommunikasiya resursu onun əməkdaşlarıdır.

***Dilarə Zamanova***
***PR mütəxəssisi***



# BMT: “Yaşıl enerjiyə keçiddə gizli bərabərsizlik var”

BMT-nin Ticarət və İnkişaf üzrə yeni (UNCTAD) təhlili qeyd edir ki, təmiz enerji investisiyalarının cəlb edilməsi vacib bir addımdır, lakin inklüziv enerji keçidini təmin etmək üçün əlavə tədbirlər görülməlidir. Dünyanın 2030-cu ilə qədər ildə 1 trilyon dollardan çox bərpa olunan enerji investisiyasına ehtiyacı var, bunun böyük hissəsi özəl və xarici mənbələrdən gəlir, lakin texnologiyaya, bacarıqlara və yerli sənaye sahələrini qurmaq üçün kifayət qədər siyasət çevikliyinə çıxışı olmadığı üçün bir çox inkişaf etməkdə olan ölkələr yaşıl iqtisadiyyatda qurucu deyil, alıcı qalmaq riski daşıyırlar.

Hesabatda iqlim tədbirləri mərkəzi qlobal prioritetə çevrilməzdən əvvəl, 1980-ci, 1990-cı və 2000-ci illərin əvvəllərində danışıqlar aparılan beynəlxalq investisiya müqavilələri araşdırılır. Hesabatda iddia edilir ki, hətta ölkələr yerli təmiz enerji sənayesi qurmağa çalışsalar belə bu müqavilələrin əhəmiyyətli bir hissəsi hökumətlərin yerli təlim, təchizatçı inkişafı və ya texnologiyanın yayılmasını təşviq edən siyasətlər qəbul etmək qabiliyyətini məhdudlaşdıra bilər.

Hesabatda deyilir ki, yeni investisiya müqavilələri hökumətlərin siyasət çevikliyini qorumaqla, təmiz enerji investisiyalarını təşviq etməklə və ölkələrə bundan faydalanmaq üçün lazım olan bacarıqları, qurumları və təchizatçı şəbəkələrini qurmağa kömək etməklə enerji keçidini daha yaxşı dəstəkləyə bilər.

İnkişaf etməkdə olan ölkələr üçün xarici investisiyalar çox vaxt vacibdir. Bərpa olunan enerji investisiyalarının 80%-dən çoxu artıq özəl mənbələrdən gəlir və təkcə daxili maliyyələşdirmə gələcək ehtiyacları ödəməyə bilər. Lakin hesabatda xəbərdarlıq edilir ki, yerli texnoloji imkanlar olmadan bərpa olunan enerji layihələrini qəbul etmək daha geniş iqtisadi qazanc təmin etmir.

Hesabatda köhnə investisiya müqavilələrində yerli sənayeni gücləndirmək üçün nəzərdə tutulmuş siyasətin istifadəsini məhdudlaşdıra biləcək müddəalara diqqət çəkilir. Bunlara investorları yerli təchizatçılardan istifadə etməyə təşviq etmək, işçi qüvvəsinin təlimini dəstəkləmək və ya texnoloji imkanların qurulmasına kömək etmək daxil ola bilər. Mövcud müqavilə münasibətlərinin üçdə birindən çoxu bu tədbirlərin bəzilərinə məhdudiyyətlər qoyur.

Hesabatda geniş müdaxilə və ya məcburi texnologiya ötürülməsi tərəfdarı yoxdur və zəif hazırlanmış tələblərin xərcləri artıra, investisiyaları azalda və ya davamlı faydalar yaratmaya biləcəyi vurğulanır. Enerji keçidinin sürətlə inkişaf edən siyasət mühitində baş verdiyi vurğulanır.

Təhlilə görə, investisiya tənliyin yalnız bir hissəsidir. Ölkələrə həmçinin ixtisaslı işçilər, infrastruktura, təchizatçı şəbəkələrinə və yeni texnologiyaların mənimsənilməsi və uyğunlaşdırılması qabiliyyətinə malik qurumlar lazımdır. Bu təməllər olmadan, hətta böyük kapital axınlarının belə məhdud təsiri ola bilər. Müasir investisiya müqavilələri inkişaf etməkdə olan ölkələrə bu təməllərin gücləndirilməsində getdikcə daha çox dəstək olmağa çalışır. Dünya ölkələri bərpa olunan enerjini genişləndirmək üçün bir-biri ilə yarışdıqca, hesabat daha geniş bir sualın ortaya çıxdığını göstərir: yaşıl investisiyanı kim alır, həm də onunla gələn bilikləri, sənaye sahələrini və imkanları kim qazanır?

Qeyd edək ki, dünya hazırda ümumi elektrik enerjisinin təxminən 32%-ni yaşıl (bərpaolunan) enerji mənbələrindən alır. Bu göstəricinin təqribən yarısı su elektrik stansiyalarının (SES), digər yarısı isə külək və günəş enerjisinin payına düşür. Beynəlxalq Enerji Agentliyinin dünyada enerji istifadəsinə dair statistikasına görə, 2030-cu ilədək dünyada enerjiyə olan tələbat 53% artacaq. Belə olan halda təbii olaraq alternativ enerji mənbələrinə tələbat da artacaq.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “ictimai və dövlət maraqlarının müdafiəsi ” istiqaməti çərçivəsində hazırlanıb.***

HESABAT

# Avropada islamofobiya hakimiyyətlərin göstərişləri ilə həyata keçirilir

***Son illərdə Avropanın əksər bölkələrində islama qarşı amansız təqiblər, təhdidlər yaşanır. Müsəlman kəslər inanclarına görə polis əməkdaşlarının gözü qarşısında yerli əhali tərəfindən döyülür, söyülür və alçaldılırlar. Fransa, Niderland, Almaniya kimi nasizmin dərin kök saldığı quruluşlarda parlamentlər səviyyəsində müsəlmanların ibadət azadlığını məhdudlaşdıran çoxsaylı qanunlar qəbul edilir. Separtçı qanunlar təsdiq edir ki, islama qarşı dövlətlər səviyyəsində təpkilər və zorakılıqlar mövcuddur. Həm də üzə çıxan fakt ondan ibarətdir ki, Avropada islamofobiya amansız xarakter alıb. Qarşısı alınmasa daha təhlükəli vəziyyət yarana bilər. Bəzən zorakılıq halları o dərəcə də amansız xarakter alır ki, quduğan polislər müsəlmanları silahdan açılan atəşlə öldürürlər.***

Müsəlmanlara qarşı törədilər vəhşiliklər dünyaca məşhur hüquq müdafiəçilərini və ictimai xadimləri ciddi narahat edir. “Hüman Rigs” beynəlxalq insan hüquqlarının müdafiə təşkilatı vicdana gələrək açıqladığı hesabatında etiraf edib ki, dünyada insan azadlıqlarının pozulması halları daha çox ABŞ və Avropa ölkələrində baş verir. Təşkilatın yaydığı hesabatında bildirilir ki, ABŞ-da 24678 nəfər, Almaniyada 13860 nəfər, Fransada 9234 nəfər, Niderlanda 7698 nəfər, Belçikada 7543 nəfər, Yunanıstanda isə 6589 nəfər müsəlman dini inancına görə, polislərin, eləcə də yerli əhalinin təhqirlərinə və zorakılıqlarına məruz qalıb.

### Avropada islamofobiya yeni mərhələyə adlayır

Dəfələrlə dünya birliyi, xüsusilə BMT-nin müvafiq sturukturları Avropa ölkələrinin hakimiyyətlərindən miqrantlara, əsasən də müsəlmanlara qarşı ayrı-seçkiliyi, zorakılıq hallarını dayandırmaq barədə çağırışlar etsə də, nəticəsi olmayıb. İslam üzrə ekspert Abdelfattah Rahaui qeyd edib ki, Avropada İslama qarşı radikal hərəkətlər aydın görünür, ancaq heç kim bunu qəbul etmək istəmir. “Qurani-Kərim”i yandıran şəxsin cəzalandırılması islamofobiyanın etiraf edilməsi olacaq. Müqəddəs “Quran” kitabının yandırılması islamofobiyanı əks etdirən faktlardan biridir. Dini düşmənçilik, irqçilik hər gün baş verir. Başıbağlı qadınlara hücumlar edilir, baş örtüyünü cırıb atır, təhqir edirlər. Belə bir hiss yaranır ki, hansısa qüvvələr bu cür vandallıq aktlarına şərait yaratmaqla müsəlmanları zorakılığa sövq etməyə çalışırlar.

Avropa İnkişaf və Araşdırma Akademiyasının (EDARA) baş direktoru Brahim Laytouss müsəlmanların səlahiyyətlənməsinin və güclənməsinin çox vacib amil olduğunu deyib. Qeyd edib ki, Avropa müsəlmanları oranın vətəndaşlarıdır, orada 25 milyon müsəlman məskunlaşıb. Onlar vətəndaş kimi cəmiyyətin inkişafında iştirak etməlidirlər.

Onun sözlərinə görə, müsəlmanlar İslam diskursunu yeniləməli, alternativ təkliflər verməlidirlər. “Biz müsəlman və qeyri-müsəlman arasında fərq qoymuruq. Biz Avropanın bir hissəsiyik. Belçikada İslam din kimi 1974-cü ildən dövlət səviyyəsində təsdiqlənib. Bu ölkənin təhsil müəssisələrində 3 mindən çox müəllim din dərsi keçir”, - deyə Laytouss əlavə edib.

ABŞ-ın Yeni Orlean şəhərindəki Tulane Universitetinin siyasət üzrə professoru Raymond Casimer Taras isə ABŞ-da islamofobiya ilə bağlı məlumatlılığın çox aşağı səviyyədə olduğunu söyləyib.

İslamofobiyaya rəvac verən daxili amillərə mütləq nəzər yetirilməli olduğunu vurğulayan professor deyib ki, islamofob düşüncəyə şərait yaradan, bir növ ona səbəb olan halların kökündə yanlış siyasət dayanır. Fəlsəfi olaraq bu vəziyyət islamofobiyanın dərin laylara keçməsinə, irqçi hərəkatların formalaşmasına və yayılmasına imkan verir.

”Biz müstəmləkəçiliyə qarşı çıxış edirik. Neomüstəmləkəçiliyin necə geniş vüsət aldığını görürük. Bu məsələlərlə bağlı məlumatlılıq artırılmalıdır”, - deyə o diqqətə çatdırıb. Dünya birliyinin, xüsusi ilə də, BMT-nin yüksək tribunalarından Avropa rəhbərliyinə ölkələrində müsəlmanlara qarşı ayrı-seçkiliyin, zorakılıq hallarının dayandırılması çağırışlarına baş bilənlərin münasibət bildirməmələri onların törədilən qeyri-insani hallada maraqlı olduqlarını göstərir. Bu isə ölkə rəhbərlərinin Avropa İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın, eləcə də bu istiqamət də beynəlxalq norma və prinsiplərin kobud şəkil də pozulmasıdır. Avropa İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın hüquqlar və azadlıqlar bölməsinin 2-ci maddəsinə ( yaşamaq hüququ) əsasən Hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa halda həyatından məhrum edilə bilməz. Həyatdan məhrum etmə, güc tətbiqində mütləq zərurətin nəticəsi olduqda bu maddənin pozulması kimi nəzərdən keçirilmir.




### Avropadan ədalətli mövqe, insan azadlıqlarına hörmət gözləməyə dəyməz

İnsan hüquqlarının müdafiəsindən, söz və vicdan azadlığından dəm vuran Avropa İttifaqı əməldə bölgədə kobud şəkildə insanların elementar hüquqlarını əlindən alır, söz azadlığına qarşı təhdidlərə, təzyiqlərə yol verir. KİV-lərin azad, müstəqil fəaliyyət göstərməsindən, ümumiyyətlə, söhbət gedə bilməz. Çünki KİV-lər tam şəkildə dövlətin və ya ayrı-ayrı böyük iş adamlarının nəzarəti altındadır. Bu yaxınlarda dünyaca məşhur milyarder İlon Mask bəyan etmişdir ki, “Avropanın, əsasən də Norveç TV-lərində yayımlanan verilişlər, saytlarında dərc olunan yazılar yüz faiz dezinformasiya və ya yalan üzərində qurulur”.

Acınacaqlı vəziyyətin hökm sürdüyü Avropadan ədalətli mövqe, insan azadlıqlarına hörmət gözləməyə dəyməz. Avropanın əksər ölkələrində yerli əhali ilə yanaşı hakimiyyət miqrantlara qarşı da zorakılıq hallarına yol verirlər. Yaxşı həyat, yüksək təminat arzusu ilə Avropa ölkələrinə üz tutan miqrantlar elə sərhəddə ciddi əngəllərlə üzləşməli olurlar. Bəzi hallarda müxtəlif məbləğdə rüşvət qarşısında ölkəyə buraxılan miqrantlar qalmaq üçün yer tapa bilmir və viza rejimi ilə üzləşir, iş tapmaqda ciddi problemlərlə qarşılaşırlar. Sonrakı mərhələdə isə hakimiyyətlərin göstərişi ilə Almaniya, Fransa, Niderland, Yunanıstan, Norveç və digər ölkələrin əhalisi tərəfindən miqrantlar təhqir edilir, döyülürlər. Söz yox ki, belə bir davranış həmin cəmiyyətlərin naşılığından və hələ də orta əsrlər təfəkküründə qalmalarından irəli gəlir. İnsanlığa fərqli yanaşma göstərən cəmiyyət və həmin cəmiyyətin hakim zümrəsi uzun ömürlü ola bilməz. Onlar gec və ya tez mövcudluqlarını itirməlidirlər.

***İ. ƏLİYEV***

TƏHLİL

SƏS
SON SƏHİFƏ
5 iyun
2026-cı il

# Universitetə qəbul olmadı, bəs sonra?

***Hər il minlərlə şagird məktəbi bitirərək həyatlarının ən mühüm qərarlarından biri ilə üz-üzə qalır: hansı peşəni seçmək və gələcək karyerasını hansı istiqamətdə qurmaq. Lakin bu proses heç də hər zaman asan olmur. Peşə seçimi zamanı məlumat çatışmazlığı, ailə təzyiqi, əmək bazarının tələblərini düzgün qiymətləndirə bilməmək və məktəblərdə peşəyönümü fəaliyyətinin yetərincə effektiv olmaması kimi problemlər gənclərin qarşısında ciddi maneələr yaradır. SİA mövzu ilə bağlı araşdırma edib.***

bəzi sahələrdə işçi çatışmazlığı yaşanır. Bu problem təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkəsində müşahidə edilir.

## Məktəblərin peşəyönümü fəaliyyəti nə qədər effektivdir?

Son illərdə Azərbaycanda peşəyönümü istiqamətində müəyyən addımlar atılıb. Məktəblərdə müxtəlif təqdimatlar, peşə sərgiləri, universitet nümayəndələri ilə görüşlər təşkil edilir. Lakin ekspertlər hesab edir ki, mövcud fəaliyyət hələ də sistemli xarakter daşımır.

**Əsas çatışmazlıqlar:**



*Gəncləri gözləyən alternativ yollar…*

## Peşə seçimi zamanı əsas problemlər - Peşələr haqqında məlumat azlığı

Bir çox məzun müəyyən peşələrin mahiyyəti, gələcək perspektivləri və əmək bazarındakı vəziyyəti barədə kifayət qədər məlumata malik olmur. Nəticədə seçimlər daha çox cəmiyyətin formalaşdırdığı stereotiplərə əsaslanır. Azərbaycanda uzun illər ərzində hüquqşünas, həkim, müəllim, iqtisadçı kimi peşələr daha nüfuzlu hesab olunub. Halbuki müasir əmək bazarında informasiya texnologiyaları, kibertəhlükəsizlik, süni intellekt, rəqəmsal marketinq, logistika, sənaye avtomatlaşdırılması və texniki peşələr üzrə mütəxəssislərə tələbat sürətlə artır.

## Ailə və cəmiyyət təzyiqi

Araşdırmalar göstərir ki, bir çox gənc peşə seçimini öz maraqları əsasında deyil, valideynlərin istəyi ilə edir. Nəticədə sonradan ixtisasından narazı qalan və ya peşəsini dəyişən şəxslərin sayı artır. Xüsusilə postsovet ölkələrində valideynlərin peşə seçimində təsiri Qərb ölkələri ilə müqayisədə daha güclü olaraq qalır.

## Əmək bazarı ilə təhsil arasındakı uyğunsuzluq

Bir çox məzun əmək bazarında hansı peşələrə ehtiyac olduğunu dəqiq bilmir. Bəzi ixtisaslarda məzun sayı çox olsa da, vakansiyalar məhdud olur. Digər tərəfdən

* Karyera məsləhətçilərinin sayının az olması;
* Şagirdlərin fərdi maraq və bacarıqlarının qiymətləndirilməməsi;
* Əmək bazarına dair aktual məlumatların çatışmazlığı;
* İstehsalat müəssisələri ilə əməkdaşlığın məhdud olması;
* Peşə təhsili haqqında məlumatlılığın aşağı səviyyədə qalması.

## Dünya təcrübəsi nə göstərir?

**Almaniya modeli**

Almaniya dünyanın ən uğurlu peşəyönümü sistemlərindən birinə malikdir. Burada "dual təhsil sistemi" tətbiq edilir. Şagirdlər məktəbdə nəzəri bilik əldə etməklə yanaşı, şirkətlərdə işləyərək praktiki təcrübə qazanırlar. Nəticədə gənclərin işsizliyi aşağı olur, məzunlar əmək bazarına daha hazırlıqlı çıxırlar və universitet təhsili yeganə uğur yolu hesab edilmir.

**Finlandiya modeli**

Finlandiya məktəblərində karyera planlaşdırılması erkən yaşlardan başlayır.

**Şagirdlər:**

* Müxtəlif peşələrlə tanış olur;
* Psixoloji və peşə yönümlü testlərdən keçir;
* Müəssisələrə ekskursiyalar edir;
* Fərdi inkişaf planları hazırlayırlar.

## Peşə təhsili müəssisələri

Azərbaycanda peşə təhsili son illərdə yenilənir və bir sıra müasir ixtisaslar üzrə hazırlıq aparılır.

Perspektivli sahələr:
* Proqramlaşdırma;
* Veb dizayn;
* Elektrik və elektronika;
* Qaynaqçılıq;
* Avtomobil servisi;
* Logistika;
* Turizm;
* Kulinariya.

Bir çox hallarda bu sahələr üzrə məzunlar universitet bitirən şəxslərdən daha tez iş tapa bilirlər.

Qısa müddətli sertifikat proqramları

Dünyada sürətlə yayılan modeldir.

Məşhur istiqamətlər:
* Süni intellekt;
* Data analitikası;
* Qrafik dizayn;
* UX/UI dizayn;
* Rəqəmsal marketinq;
* Kibertəhlükəsizlik;
* Video montaj.

Bu proqramlar bəzən 3-12 ay ərzində peşə əldə etməyə imkan verir.

## Onlayn təhsil

Pandemiyadan sonra dünyanın ən böyük təhsil istiqamətlərindən birinə çevrilib. Gənclər dünyanın aparıcı universitetlərinin kurslarına qoşula bilirlər. Bu model xüsusilə ABŞ və Avropada geniş yayılıb.

## Sahibkarlıq fəaliyyəti

Bir çox ölkədə gənclər məktəbdən sonra birbaşa biznes qurmağa üstünlük verirlər.

Azərbaycanda da:
* Elektron ticarət;
* Sosial media idarəçiliyi;
* Onlayn satış;
* Kiçik istehsal sahələri gənclər üçün əlavə imkanlar yaradır.

## İşləyərək təhsil alma modeli

ABŞ, Kanada və bir sıra Avropa ölkələrində geniş yayılmış yanaşmadır. Gənclər əvvəl əmək bazarına daxil olur, sonra təhsillərini davam etdirirlər. Bu zaman həm təcrübə, həm də maliyyə imkanları qazanırlar.

## Azərbaycanda dəyişməli olan yanaşma

Ekspertlər hesab edir ki, cəmiyyət universitet diplomunu uğurun yeganə göstəricisi kimi qəbul etməkdən uzaqlaşmalıdır.

**Müasir iqtisadiyyatda:**
* Bacarıq diplomdan daha vacib ola bilir;
* Texniki peşələrə tələbat artır;
* Süni intellekt və rəqəmsallaşma yeni peşələr yaradır;
* Ömürboyu təhsil modeli əsas tendensiyaya çevrilir.

Bu səbəbdən peşə seçimi yalnız qəbul imtahanının nəticəsi ilə müəyyənləşməməli, şagirdin maraqları, qabiliyyətləri və əmək bazarının real ehtiyacları nəzərə alınmalıdır. Dünya təcrübəsi göstərir ki, uğurlu karyera üçün universitet təhsili vacib olsa da, yeganə yol deyil. Almaniya, Finlandiya və Sinqapur kimi ölkələrdə peşə təhsili, dual təhsil sistemi və erkən karyera yönləndirilməsi gənclərin əmək bazarına daha hazırlıqlı çıxmasına şərait yaradır. Azərbaycanda da peşəyönümü fəaliyyətinin gücləndirilməsi, peşə təhsilinin nüfuzunun artırılması və gənclərə alternativ inkişaf yollarının təqdim edilməsi gələcəkdə həm işsizliyin azalmasına, həm də əmək bazarının daha balanslı formalaşmasına töhfə verə bilər.

***Ayşən Vəli***

ARAŞDIRMA

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com

"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur
Tiraj: 2000